

**Mürsəl İrəvanlı,**

**Yazıçı-publisist, M. Qorki adına Beynəlxalq mükafat laureatı Gəncə şəhəri**

# El köçdü, yurdum qaldı

**I YAZI**

***Etnik "təmizlənmə" və "Türksüz Ermənistan" uğrunda ermənilərin əsrlər boyu apardıqları gizli mübarizə və açıq-aşkar müharibələr tarixinə 1991-ci il avqustun səkkizinə keçən gecə son qoyuldu. İzzət və ismətlərini, qocaları və qadınları, körpələri erməni faşistlərindən qorumaq üçün o gecə nüvədililər də ata-baba yurdlarını tərk etməyə məcbur oldular. 1988-ci ildən sonrakı üç ildə Ermənistanda azərbaycanlıların məskun olduqları yeganə kənd də öz yurddaşlarını itirdi. Ermənistanda daha nə azərbaycanlı var, nə azərbaycanlılar yaşayan kənd, nə də bu kəndlərdən hər birinin çox qədimdən bəri daşıdığı türk mənşəli adı. "Demokratiya" bayrağı altında hakimiyyət başına gəlmiş Levon Ter-Petrosyanın 1991-ci il aprelin 9-da imzaladığı bir fərmanla nə az, nə çox, düz 97 kəndin adı dəyişdirilib erməniləşdirildi. Əslində azərbaycanlıların yaşadığı kəndlərin adlarının yaddaşlardan silinməsi siyasətinə rəsmən 1935-ci ildən başlanmış və 1978-ci ilədək 465 kəndə yeni ad verilmişdir. Halbuki erməni müəllifi Zaven Korkodyanın 1932-ci ildə nəşr etdirdiyi "Sovet Ermənistanının əhalisi son yüz ildə, 1831-1931" statistik məlumat kitabında adları çəkilən 2310 kənddən az qala iki mininin adı türkdillidir.***

Tarixi tale üzündən azərbaycanlılar yer üzünün müxtəlif guşələrinə səpələnmişlər. Bu hamıya məlumdur və inkaredilməz faktdır. Təəssüf və təəccüb doğuran isə budur ki, Şərqin bu qədim xalqının bitkin və dolğun tarixi coğrafiyası hələ də işlənməmişdir. Xalqımızın indiki Azərbaycan Respublikası hüdudlarından kənarda olan qüdrətli qollarının - Cənubi Azərbaycanda, Gürcüstanda, Ermənistanda yaşayıb-yaradan soydaşlarımızın adlarını belə çəkməyə uzun zaman cəsarətimiz çatmayıb. Ermənistanda yaşayan azərbaycanlıların aqibəti bu mənada daha acınacaqlı olmuşdur.

***Mövcud tarixi məxəzlərə görə, Ermənistanda yaşamış azəri türklərinin ulu əcdadları hələ e.ə. I minillikdə orada məskun idilər. Miladdan əvvəl VIII-VII əsrlərdə Urartu çarlığına daxil olan indiki Ermənistan ərazisi Şimaldan gəlmiş türkdilli kimmerlərə (kəmərlər), skiflərə (nekitlər), saklara, quqarlara, şiraklara, pasianlara məxsus idi. Bu ölkə Urartu mənbələrində Ernoxi, Etuni, İrpuni və b. vilayətlərin adları ilə adlanmışdır. Kimmerlərin, pasianların, quqarların və şirakların adları indiyədək Qamri, Becni, Quqark və Şirak adları kimi səslənir.***

Eramızın əvvəllərindən başlayaraq indiki Ermənistan ərazisinə türkdilli hunlar, kəngərlər, bolqarlar, xəzərlər və başqa türk mənsublu tayfalar da gəlib məskunlaşmışlar. XI-XII əsrlərdə isə buraya oğuzlar gəlmişlər. Təsadüfi deyildir ki, "Kitabi-Dədə Qorqud" eposunda çəkilən yer adlarının bir qismi məhz Ermənistan ərazisindədir.

Ermənistan əvvəlcə farsların, parfiyalıların, romalıların, VII əsrdən ərəblərin, XI əsrdən başlayaraq XIX əsrin əvvəllərinədək Türkiyə və İranın hakimiyyəti altında olmuşdur.

Təəccüblü burasıdır ki, aborigen əhali olan Ermənistan azərbaycanlılarının tarixi haqqında qısa məlumat verməyi belə nə erməni tarixçiləri, nə də Azərbaycan tarixçiləri rəva bilməmişlər. Erməni olmadıqlarına görə onlar "Erməni xalqının tarixi"ndən, Azərbaycanda yaşamadıqlarına görə "Azərbaycan tarixi"ndən kənarda qalmışlar. Buna görədir ki, xalqımızın Ermənistan ərazisindən gələn hənirtisini, o torpağın altında və üstündə qalan və qalmayan maddi mədəniyyət abidələrini, sənət incilərini, qayaüstü yazı və rəsmlərini, məzar kitabələrini və təsvirlərini, mənası hələ də araşdırılmamış minlərlə toponimlərini öyrənmək üçün heç kim təşəbbüs göstərməmişdir. Bu tarixi oçerk məhz həmin boşluğun doldurulmasına kömək etmək, Ermənistan azərbaycanlıları haqqında toplanmış çoxlu tarixi sənədlərin bir qismini geniş oxucu kütləsinə, imkan dairəsində həm də dünya ictimaiyyətinə çatdırmaq məqsədi ilə nəşr olunmuşdur.

Xülasə şəklində verilən bu sənədlər bir daha sübut edir ki, Ermənistan azərbaycanlıları indiyədək qələmə verildiyi kimi oraya nəvaxtsa "gəlmələr" deyil, əsrlər boyu bu diyarın yerli sakinləri olmuşlar. Z.Korkodyanın yuxarıda adını çəkdiyimiz kitabında çəkilən kəndlərin adları erməni tarixçisi Y.Şahəzizin İrəvan əhalisi haqqında İ.Şopenə isnadən gətirdiyi dəlillər də fikrimizi təsdiq edir. Göstərilir ki, 1827-ci ildə İrəvanda 12 min nəfərlik 2400 ailə yaşamışdır. Şəhər qalası ruslar tərəfindən alınandan sonra yerli kübar azərbaycanlı ailələrinin bir qismi İrana köçmüş, ermənilər isə İran və Türkiyədən buraya köçürülmüşlər. 1828-ci ildə əhalinin milli tərkibi belə olmuşdur: azərbaycanlılar - 1807 ailə, 7331 nəfər; ermənilər - 567 ailə, 2379 nəfərdən artıb 4132 nəfərə çatmışdır. Burada 4 xan, 41 bəy və sultan ailəsi (azərbaycanlı), cəmi 8 məlik və ağalar (erməni) yaşayırdı. Şəhərdə 50 axund və molla, cəmi 13 keşiş var idi. Sisyanda, Qafanda, Uluxanlıda, Qəmərlidə, Zəngibasarda, Dərəçiçəkdə, Göyçə mahalında, Ağbabada olan abidələr, qalalar, ziyarətgahlar, məzarlar, qəbirüstü daşlar, daş qoçlar, səyyahları heyran qoyan Xan sarayının, Göy məscidin, İrəvandakı daha yeddi məscidin memarlığı və s. bütün bunlar azərbaycanlıların tarixi keçmişinə məxsus yadigarlardır. Ermənistanda yaşayan azərbaycanlıların tarixi keçmişinin öyrənilməsində təkcə məxəzlərin kasadlıqları deyil, həm də belə bir çətinliklə üzləşirik ki, o zaman onları fars, müsəlman, tatar, qarapapaq, ağqoyunlu, qaraqoyunlu adlandırmışlar. Səyyahlar, başqa millətdən olan tədqiqatçılar bu incəliyi aydın dərk edə bilmədiklərindən öz qeydlərində çoxlu qeyri-dəqiqliyə yol vermişlər.

***Ata-babalarımızın minlərcə məzarı bu gündə Ermənistan torpağında qalır. O torpağın hər qarışında, tarixinin hər səhifəsində sələflərimizin izləri vardır. Xalqımızın qüdrətli bir qolunun mənalı soy yaddaşı yaşamaqdadır.***

1827-ci ildə ruslar İrəvan qalasını alanda şəhərdə əhalinin 70%-dən çoxu azərbaycanlılar olub. İrəvan quberniyası Qafqazda yaşayan azərbaycanlıların sayına görə Bakı və Gəncə quberniyalarından sonra üçüncü yeri tuturdu. Sonrakı vaxtlarda azərbaycanlıların sayı get-gedə azalsa da, onlar bu ərazini həmişə ana yurdu hesab etmiş, yeri gələndə onun naminə həyatlarından keçməyə də hazır olmuşlar. İnzibati ərazi bölgüləri, hakim dairələr tez-tez dəyişsə də, Ermənistanda yaşayan azərbaycanlılar heç vaxt xalqımızın ümumi inkişaf prosesindən ayrılmamış, öz kökünə daim bağlı olmuşdur. Müxtəlif çətinliklərə baxmayaraq, orada ana dilimizdə kitab, qəzet nəşr olunmuş, teatr tamaşaları göstərilmiş, məktəblər açılmışdır.

***Milli ədavət mürəkkəb siyasət deyil. Bu, "Parçala, ağalıq et!" qayəsini əsas götürən böyük dövlətlərin hakim dairələri tərəfindən ustalıqla həyata keçirilən, xırda millət və xalqların hakim dairələrinə, yaxud hakimiyyət başına gəlmək meylində olan davakar dairələrə verilən qəvi silahdır. Bu silahı "satan da, alan da" həmişə kənardan boylanır. Bu "silahdan" atəş açan da, bu atəşə hədəf olub qurban gedən də adətən hər iki tərəfin günahsız, təmənnasız adamları olur.***

Qəbir və ocaq qonşuları olan, öz kökü üstündə dayanıb öz zirvəsilə dünyaya boylanan Azərbaycan və erməni xalqları arasında dönə-dönə törədilən silahlı toqquşmalar, qanlı vuruşmalar, amansız qırğınlar, hər iki tərəfin irəliləyişini xeyli ləngidən münaqişələr, səyləri birləşdirmək əzmini söndürən qarşıdurma bunun aşkar sübutudur. Bəli, milli ədavət bu mənada əsl ölüm saçan, millət və xalqları inkişaf yolundan qoyan, diqqəti gizli məqsədlərdən yayındıran güclü silahdır. Ermənistan azərbaycanlıları uzun illər bu silahın hədəfi, bu ədavətin günahsız qurbanları olmuşlar.

Ötən yüzilliyin 20-ci illərindən 1989-cu ilədək Türkiyəyə, İrana, Azərbaycana, Gürcüstana, Şimali Qafqaza və Orta Asiyaya buradan gedən, ata-baba yurdunu tərk etməyə məcbur qalan, "İran təbəəsi", "Türk təbəəsi" adı altında "xalq düşməni", "şübhəli ünsür" damğası ilə sürgün edilən, 1948-1953 və 1988-1989-cu illərdə didərgin düşən azərbaycanlıların sayı 1,5 min nəfərdən çox olmuşdur. Bundan əlavə, 1905-1907-ci və 1918-1920-ci illərdə olan qanlı vuruşmalarda yarım milyon azərbaycanlı Ermənistan ərazisində qətlə yetirilmişdir.

Ermənistan azərbaycanlıları sözün əsl mənasında soyqırım siyasətinin qurbanı olmuşlar. Soyqırım millətin, irqin, qəbilə və tayfanın kökünü kəsmək deməkdir. Ermənistan azərbaycanlılarının da kökü ata-baba yurdundan həm fiziki, həm də mənən kəsilmişdir. Bunu bir də ona görə fiziki və mənəvi divan, qətl hesab etmək lazımdır ki, Ermənistan azərbaycanlıları öz qonşularına qarşı heç vaxt üsyankar mövqe tutmamış, müstəqillik, hakimiyyət uğrunda nəinki silahlı, heç dinc yolla da mübarizəyə qalxmaq fikrində olmamışlar, onların istəyi-amalı əmin-amanlıq şəraitində yaşayıb-yaratmaq, doğma Vətəni saydığı Ermənistanın dirçəlişində gücü və imkanı daxilində iştirak etmək olmuşdur. Dağlıq Qarabağ adlandırılmış uydurma problemlə, bununla bağlı kükrəyib ətrafa yayılan ədavətlə Ermənistan azərbaycanlısının heç bir əlaqəsi, təqsiri, təmənnası belə olmamışdır. Onların Ermənistandan qovulması məhz milli ədavətin gücləndirilməsi, "Türksüz Ermənistan" siyasətinin nəticəsidir.



"Erməni-müsəlman" münaqişəsinin tarixi təsviri, səbəb və nəticələri indiyədək yalnız birtərəfli işıqlandırılmışdır. Erməni xalqının tarixində, dərsliklərdə, kütləvi informasiya vasitələrində, hətta bədii ədəbiyyatda, filmlərdə və səhnə əsərlərində erməni-türk, erməni-azərbaycanlı münaqişələri, xüsusilə 1965-ci ildən sonra başlıca mövzuya çevrilmişdi. Əksinə, Azərbaycanda isə bu barədə söz-söhbət açmaq uzun zaman qadağan olunmuş, hətta tarixi həqiqətləri olduğu kimi yazmağa belə imkan verilməmişdir.

***İki qonşu xalq arasında uzun illər boyu davam edən milli ədavətin, xüsusilə 1905 və 1918-1920-ci illərdə törədilən qanlı toqquşmaların səbəb və nəticələrinin təhlilində ikili münasibət vardı. Azərbaycanda bu barədə susmağı üstün tuturdular. Ermənistanda isə, əksinə, millətçi ünsürlər xaricdən verilən fitvalar əsasında qarşıdurmanı həmişə saxlamış və azərbaycanlıların tamamilə qovulması vəzifəsini həyata keçirmək üçün hərtərəfli hazırlıq işi aparmışlar. Bu məqsədlə ermənilər həm daxildə, həm də erməni diasporu vasitəsilə xaricdə güclü təbliğat aparır və məkrli planlarını başa çatdırmağa səy göstərirdilər. Onlar hər vasitə ilə yeni nəsli azərbaycanlılara qarşı nifrət ruhunda tərbiyə edirdilər. Bunun nəticəsidir ki, indi dünya ictimaiyyətini, Ermənistanın özündə olan yeni nəsli çox çətinliklə inandırmaq olur ki, uydurma "Qarabağ problemi", dünyaya səs salmış Sumqayıt, Bakı, Quqark, Şirazlı hadisələri qəfildən atılan güllə deyil, uzun illər boyu ətraflı düşünülmüş və hazırlanmış faciədir. Nəticədə əsrin əvvəlindən bu yana neçə min günahsız azərbaycanlı və erməni qara torpağa gömülmüş, milli ədavətə qurban getmişdir. Bu baxımdan Ermənistan azərbaycanlılarının faciəsindən bəhs edən məlumatların yığcam şəkildə oxuculara, imkan daxilində həm də erməni oxucusuna çatdırılmasının təkcə nəzəri cəhətdən deyil, həm də əməli cəhətdən əhəmiyyətli olacağına inanırıq.***

**(ardı var)**